# MİLLİ MARAQLAR UĞRUNDA GÜZƏŞTƏ GETMƏYƏN PREZİDENT

## "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabının təqdimatı

***Milli Məclisin deputatı, yazıçı, Əməkdar jurnalist Elmira Axundovanın Moskvanın "Politiçeskaya ensiklopediya" nəşriyyatında rus dilində çap edilmiş "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" ("Ильхам Алиев. Портрет президента на фоне перемен") kitabının noyabrın 30-da "Gülüstan" sarayında təqdimatı keçirilib.***

Tədbirdə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm xadimləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə tədbiri açaraq Azərbaycan Respublikası dövlət mükafatı laureatı Elmira Axundovanın əsərinin təqdimatının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib: "Bu gün biz respublikamızın müasir ictimai-siyasi və mədəni həyatında minin gücü ilə yarada bilmişdir.

Təqdimat mərasimində çıxış edənlər kitab barəsində öz fikirlərini deyəcəklər, mən isə bu əsərə daha çox dilinin bədiiliyinə, sadə obrazlılığına, çoxsaylı sənədlərin, müsahibələrin, yeni faktların, istifadə olunmuş qaynaqların əlvanlığına görə sənədli roman kimi baxıram.

Təqdim olunan kitabın əsas ağırlıq mərkəzini İlham Əliyevin müstəqil Azərbaycanın hərtərəfli inkişafına yönəlmiş siyasi fəaliyyəti təşkil edir. Hamınıza yaxşı məlumdur ki, on ildən artıq müddət ərzində İlham Əliyevin həyata keçirdiyi ardıcıl dəfə əmin oluram ki, Azərbaycan xalqı, Azərbaycan ziyalıları nə qədər düzgün seçim etmişdir. Bəli, son on beş ilə yaxın müddətdə ölkənin inkişafı sübut etdi ki, Azərbaycanımızı intellektin və mənəvi dəyərlərin işığında xoşbəxt gələcəyə apara bilən yeganə qüvvə cənab İlham Əliyevdir.

İndi Azərbaycanın əsas strateji hədəfi intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulmasıdır. Hazırda dünyada və regionda ciddi siyasi, iqtisadi və hərbi böhranların müşahidə olunduğu bir şəraitdə müstəqil Azərbaycan müxtəlif xarakterli risklərdən uğurla yayınır, ölkədə sabitlik qorunub saxlanılır, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf tempinin heç bir halda zəifləməsinə yol verilmir. Hazırda Azərbaycanda bütün dünyanın qibtə etdiyi və olduqca yüksək qiymətləndirdiyi çən yüzilliyin 90-cı illərinin ortalarından dünyanın aparıcı liderlərinə xas olan xüsusiyyətləri ilə dünyanın siyasi elitasının diqqətini cəlb etməyə başlamışdır. Xüsusən, "Əsrin kontraktı"nın gerçəkləşməsində onun göstərdiyi titanik səylər, prezident seçildikdən sonra isə qlobal siyasət meydanında dünya səviyyəli bir lider kimi fəaliyyəti, qətiyyət və cəsarəti çoxsaylı fakt və sənədlərin işığında oxucunun diqqətinə çatdırılır.

Bu baxımdan kitabın "İlham Əliyevin neft "qambiti", "Böyük" neftdən "böyük" siyasətə", "Şərq və Qərb arasında", "Böyük idman - böyük siyasət", "Güclü lider - güclü ölkə, yaxud stereotiplərin sındırılması" və başqa fəsilləri kifayət qədər zəngin material verir. Müəllif İlham Əliyevin prezidentlik kredosunu onun öz sözləri ilə ifadə etməyə üstünlük verir. Həmin nitqdən raq toplanmış faktların, hadisələrin və rəylərin Azərbaycan Prezidenti haqqında geniş məlumat verdiyini vurğuladılar.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə təqdimat mərasimində yekun nitq ilə çıxış etdi: "Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı Elmira xanım Axundovanın möhtərəm Prezidentimizə həsr etdiyi "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" adlı nəfis və dərin məzmunlu kitabın təqdimatı başa çatır. Mən ilk növbədə, gərgin axtarışlar nəticəsində sevə-sevə ərsəyə gətirdiyi belə dəyərli əsər üçün müəllifə bir daha təşəkkürümü bildirirəm.

Eyni sevgini və səmimiyyəti kitab ətrafında fikirlərini bizimlə bölüşən natiqlərin sözlərində də mühüm və əlamətdar hadisə kimi dəyərləndirə biləcəyimiz bir əsərin, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Milli Məclisin deputatı Elmira xanım Axundovanın "İlham Əliyev. Prezidentin portreti dəyişiklərin fonunda" kitabının təqdimat mərasiminə toplaşmışıq. Göründüyü kimi, kitab müasir dövrün görkəmli siyasi xadimlərindən olan, Azərbaycan Respublikasının Prezidenti, hamımızın fəxri və sevimlisi İlham Əliyevə həsr olunmuşdur.

Tarixin təcrübəsi belə bir həqiqəti sübut edir ki, "şəxsiyyət və tarix münasibətlərinin dialektikası" onların bir-biri ilə qarşılıqlı münasibətlərinə əsaslanır: tarix şəxsiyyəti yetişdirir, şəxsiyyət isə yenidən tarix yaradır! Hər hansı bir xalqın milli potensiyalı, qüdrəti onun yetişdirdiyi tarixi şəxsiyyətdə, bu şəxsiyyətin sosial tərəqqinin inkişafını şərtləndirən titanik fəaliyyətində təzahür edir. Azərbaycan xalqının tarix yaradan şəxsiyyətlər çox olmuşdurg Bu baxımdan tariximizdə böyük şəxsiyyətlər silsiləsi mövcuddur. Yaşadığımız XXI əsrdə belə bir şəxsiyyət böyük hörmət və ehtiram bəslədiyimiz İlham Əliyevdir.

Elmira xanım kitabın əvvəlində dəqiq bir hədəf müəyyənləşdirmişdir. O, hər hansı bir şəxsin minlərlə, milyonlarla insanlardan fərqlənərək xalqı öz arxasınca aparan dahi şəxsiyyətə necə çevrilməsinin sirrini açmağı öz qarşısına məqsəd qoyur:

"İnsan necə prezident olur? Ümumiyyətlə, necə məşhur, uğurlu, nüfuzlu, bir sözlə - lider olur?"

Tarix boyu fikir adamları, böyük filosoflar, mütəfəkkir şairlər, qələm adamları bu suallara saysız-hesabsız cavablar versələr də məsələ hələ də açıq qalır və tam dolğun cavabını gözləyir.

Bəri başdan qeyd edim ki, Elmira xanım qarşıya qoyduğu əsas məqsədin öhdəsindən uğurla gəlmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gözəl, əzəmətli, orijinal portretini öz qələ-



və məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda keçid mərhələsi başa çatmış, vətəndaş cəmiyyətinin formalaşmasının əsası qoyulmuş, ölkənin strateji mövqeləri möhkəmləndirilmiş, müdafiə qüdrəti artmış və Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan inkişaf edərək regionun lider dövlətinə çevrilmişdir.

Əziz dostlar! İcazənizlə bir haşiyəyə çıxmaq istərdim. Söz vaxtına çəkər, deyiblər. 2003-cü ilin payızı idi. Yəqin ki, burada əyləşən ziyalıların hafizəsində olar. Prezident seçkisi ərəfəsi idi. O zaman, biz ziyalılar, respublikanın Baş Naziri İlham Əliyevlə Dövlət Musiqili Komediya Teatrında görüş keçirdik. Bu tədbirdə bir sıra dövlət xadimləri də iştirak edirdi. Görüşdə tədbirin idarə olunması mənə həvalə olunmuşdu. Yaxşı xatırlayıram, çıxış edən bütün ziyalılar birmənalı olaraq Azərbaycanın işıqlı gələcəyi naminə ümummilli lider Heydər Əliyev kursunun davam etdirilməsinin zəruriliyini vurğuladılar, birmənalı olaraq cənab İlham Əliyevin namizədliyini dəstəklədilər. O zaman cənab İlham Əliyev tədbirdə çıxış edərək öz siyasi platformasını elan elədi. Aradan keçən müddət ərzində ölkəmizdəki dəyişiklikləri, hərtərəfli inkişafı görərkən mən hər multikultural və tolerant bir mühit yaranmışdır. Bütün bu uğurların əsasında İlham Əliyev tərəfindən dinamik və dönməz ritmlə həyata keçirilən dövlət siyasəti dayanır. Kitabda bu məqamlar geniş əks olunmuşdur.

Hesab edirəm ki, bu kitab Azərbaycan həqiqətlərinin rus dili vasitəsilə dünyada tanıdılmasına və təbliğinə böyük töhfə verə biləcəkdir.

Bir də düşünürəm ki, bu mükəmməl əsərin Azərbaycan dilində, ingilis dilində, bütövlükdə isə dünyanın aparıcı xalqlarının dillərinə tərcümə edilib nəşr olunması da vacib və faydalı olardı.

Kitabın xüsusi cəhətlərindən biri də onun olduqca mükəmməl bir struktura malik olmasıdır. Müəllif İlham Əliyev şəxsiyyətinin real fakt və hadisələrə əsaslanan parlaq obrazını yaratmaq üçün burada müxtəlif baxış bucaqları müəyyən etmişdir. Biz burada İlham Əliyevlə yaxın münasibətdə olmuş müxtəlif şəxslərin, onun ailə üzvlərindən tutmuş görkəmli siyasi xadimlərə qədər müxtəlif insanların Prezidentlə bağlı xatirələri, dəyərləndirmələri, fikir və mülahizələri ilə tanış oluruq.

Kitab müəllifinin fikrincə, Prezident İlham Əliyev hələ kebir neçə cümləni sitat vermək istəyirəm:

"İlk növbədə deməliyəm ki, mən prezidentlik hakimiyyətini və gördüyüm işi xalq qarşısında böyük bir məsuliyyət və ölkə qarşısında cavabdehlik kimi qəbul edirəm. Prezident respublikalarında bu hakimiyyət, yəqin ki, ikiqat məsuliyyətli olmalıdır. Eləcə də, əlbəttə, hakimiyyət dövləti yaratmağa və qurmağa, siyasi institutları inkişaf etdirməyə, insanların günü gündən daha yaxşı yaşamasına şərait yaratmağa imkan verir. Xalqın mənə verdiyi səlahiyyətlərə məhz bu nöqtədən - böyük bir məsuliyyət və öz ölkəm üçün bəlkə də başqalarının gördüyündən daha çox iş görmək imkanı kimi baxıram".

Prezident İlham Əliyevin öz ölkəsi və xalqı üçün gördüyü və Elmira Axundovanın kitabında öz dolğun əksini tapdığı nəhəng işlər bu sözlərin arxasında stereotipləri sındırmağa qadir olan nəhəng bir şəxsiyyətin simasına şübhə yeri qoymur.

Kitabın müəllifi Elmira Axundovanı ziyalı-vətəndaş mövqeyi ilə dövlətçilik düşüncəsinin vəhdəti təcəssümü olan belə bir kitabın nəşri münasibətilə səmimi qəlbdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq".

Tədbirdə həmçinin Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor, Milli Məclisin deputatı Musa Qasımlı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin və başqaları da çıxış edərək kitabda açıq mənbələrdən götürülmüş sənədlərdən, xalqımızın ümummilli lideri Heydər Əliyevi və Prezident İlham Əliyevi əhatə edən insanlardan müəllifin şəxsən aldığı nadir müsahibələrdən istifadə olunaduymaq çətin deyildi. Əlbəttə, bunun da öz səbəbi var. Qarşımızdakı kitabın həsr edildiyi şəxsiyyət öz xalqı, Vətəni üçün o qədər böyük işlər görüb ki, onun haqqında cild-cild kitablar yazıla bilər və bu kitabların hamısında da eyni səmimiyyət, eyni sevgi, eyni minnətdarlıq hissləri aparıcı motiv olacaqdır.

Çıxışlardan da məlum olduğu kimi, Elmira xanımın kitabı indiyə qədər möhtərəm Prezident haqqında yazılan əsərlərdəki müəyyən faktları təkrar etsə də, bu faktların, hadisələrin qiymətləndirilməsi və təhlili tamamilə fərqli rakursdan aparılıb. Biz burada Prezidentin şəxsiyyətinin, həyat və yaradıcılığının, bir sözlə - portretinin yeni, maraqlı, eyni zamanda, cəlbedici, qürurverici cizgilərini görürük. Əlbəttə, yazıçının istedadı da elə bundadır ki, bəzən gördüyümüz, ancaq mahiyyətinə dərindən varmadığımız portret cizgilərini bizə göstərsin. Elmira Axundova məhz bu cür istedadlı qələm sahibi, siyasi publisistika ustasıdır. Uzun illər bu sahədə qələm çalması, zəngin yazıçılıq təcrübəsi əldə etməsi son nəticədə bu cür mükəmməl əsəri ortaya qoymasına imkan vermişdir.

O da əlamətdardır ki, kitab Rusiya Federasiyasının nüfuzlu nəşriyyatlarından olan "Rosspen"də böyük tirajla, rus dilində işıq üzü görmüşdür. Bu isə əsərin təkcə Rusiyada və MDB məkanında deyil, eləcə də bütün dünyada geniş oxucu kütləsi tərəfindən qəbul ediləcəyinə şübhə yeri qoymur. Rusdilli auditoriyanın qlobal səviyyədə necə geniş olması da heç kəsə sirr deyil.

Sözümü kitabın "Sözardı əvəzinə, yaxud davamı olacaq" adlı fəslində Elmira Axundovanın gözəl və maraqlı sözləri ilə bitirmək istəyirəm: "Azərbaycan Prezidentinin yarandığı ümumxalq məhəbbəti və dəstəyi ona manevr üçün geniş meydan açaraq əsil müstəqil siyasət yürütməyə imkan verir.

***(Davamı 3-cü səhifədə)***

# MİLLİ MARAQLAR UĞRUNDA GÜZƏŞTƏ GETMƏYƏN PREZİDENT

*(Əvvəli 2-ci səhifədə)*

Özünün dediyi kimi: "Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Biz kiminsə diktəsi ilə heç bir iş görmürük və görməyəcəyik!" Möhtərəm Prezidentin bu sözlərinə mənim hər bir həmvətənim imza atmağa hazırdır.

Mənə görə, İlham Əliyevin bir dövlət başçısı kimi ən cəlbedici xüsusiyyəti - milli maraqlar uğrunda mübarizədə güzəştə getməməsi, eyni zamanda, Azərbaycanın dostlarına qarşı səmimiliyi və xeyirxahlığıdır. Virtuoz bir kapitan kimi o, öz gəmisini bir dəfə də olsun sualtı qayalara toxundurmadan irəli aparır...

...Xalqının istəyi ilə hakimiyyətin ən yüksək zirvəsinə qalxarkən o, tarixin avansəhnəsinə çıxaraq, ölkənin hər bir vətəndaşının prezidenti olmağa and içdi. Ötən illər göstərdi ki, o öz vədini "yüzdə yüz" tutmuşdur. Və bu gün biz fəxr edirik ki, ölkəmizin Prezidenti XXI əsrin siyasətçisi, Oljas Süleymenovun sözü ilə desək, "planetar miqyaslı" şəxsiyyət olan İlham Heydər oğlu Əliyevdir".

Doğrudan da, 25 il öncə dünyada tanınmayan, xəritələrdə SSRİ ərazisi kimi göstərilən Azərbaycan Respublikasının qısa müddətdə bu qədər möhtəşəm yüksəlişə nail olması, hər şeydən öncə, böyük dövlət xadimlərinin apardığı düzgün və səmərəli daxili və xarici siyasətin bəhrəsidir. Tariximizin keşməkeşli anlarında Ümummilli Liderimiz məhz bu cür fəaliyyəti nəticəsində ölkəni parçalanmadan xilas etmiş, möhtərəm Prezidentimiz İlham Əliyev məhz bu cür fəaliyyəti nəticəsində müstəqil Azərbaycanı planetar miqyasa qaldıra bilmişdir. Ancaq bu hələ başlanğıcdır. Elmira xanımın dediyi kimi, "davamı olacaq" və bu proses Prezident İlham Əliyevin daha böyük uğurlara imza atması, yeni möhtəşəm portret cizgilərinin yaranması ilə davam edəcək. Və şübhəsiz ki, onun haqqında hələ neçə-neçə bu cür kitablar yazılacaq. Çünki İlham Əliyev stereotipləri sındıran, yeni paradiqmalar yaradan qlobal səviyyəli bir dövlət başçısı, böyük tarixi şəxsiyyətdir.

Cənab İ.Əliyevin ürəyi bu gün də öz xalqının qəlbilə həmahəng döyünür. Onun dili ilə desək -

**Mavi Xəzərindir ən büllur aynam,**
**Məğrur Qız qalası o dilbər sonam,**
**Ulu yaşlı Bakım ey müdrik anam.**
**Sən mənim baş tacım, şöhrətim, şanım,**
**Sevdası olduğum Azərbaycanım!**

Onu da qeyd edim ki, bir neçə gündən sonra möhtərəm Prezidentin 55 yaşı tamam olur. Bu münasibətlə sizin adınızdan və öz adımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ürəkdən təbrik edir, ona möhkəm can sağlığı və Azərbaycanın çiçəklənməsi naminə titanik fəaliyyətində yeni-yeni uğurlar arzulayıram".